## Bu halların qarşısını almaq üçün

**Qanunvericilik:**

- **"Korrupsiyaya qarşı mübarizə haqqında"** Azərbaycan Respublikasının Qanunu korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəlmişdir.
- **"Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu** şəffaf, ədalətli və keyfiyyətli xidmətləri təmin edir.

**Rüşvət vermək və almaq eyni dərəcədə məsuliyyət yaradır.**

**Şəffaf xidmət tələb et.**
**Qanuni yollarla hərəkət et.**
**Maariflən və hüquqlarını bil.**

*Şəffaf turizm – güvənli səyahətin təminatıdır!*





# UNUTMA:

Turizmdə korrupsiyaya qarşı mübarizə hər bir turistin təhlükəsizliyi və ölkənin nüfuzu üçün vacibdir!

### ƏLAQƏ VƏ YARDIM

**161**

Korrupsiyaya qarşı mübarizə üzrə qaynar xətt

www.tourism.gov.az
www.antikorrupsiya.gov.az

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət edin!

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

# KORRUPSİYAYA YOX DEYƏK!



*Şəffaf turizm – güvənli gələcək*



## Korrupsiya nədir?

**Korrupsiya** – vəzifəli şəxslərin öz səlahiyyətlərindən şəxsi və (və ya) üçüncü şəxslərin maraqları üçün qanunsuz istifadə etməsidir.

**Korrupsiya hüquqpozmaları:**

- **Rüşvət tələb və ya qəbul etmək** – vəzifəli şəxsin səlahiyyətləri müqabilində özü və ya başqası üçün maddi və ya digər fayda əldə etməsi və ya belə təklifi qəbul etməsi.
- **Rüşvət vermək və ya təklif etmək** – fiziki və ya hüquqi şəxsin vəzifəli şəxsə maddi və ya digər nemət təklif etməsi, vəd etməsi və ya verməsi.
- **Qanunsuz əldə edilmiş əmlakdan istifadə** – vəzifəli şəxsin səlahiyyətləri çərçivəsində qanunsuz yolla əldə edilmiş əmlakdan gəlir məqsədilə istifadə etməsi.
- **Qiymət manipulyasiyası** – vəzifəli şəxsin xidmətlə əlaqədar malları və xidmətləri dəyərindən aşağı qiymətə və ya pulsuz əldə etməsi.
- **Qanunsuz gəlir əldə etmək** – vəzifəli şəxsin əmanətlərdən, qiymətli kağızlardan və s. vasitələrlə qanunsuz gəlir götürməsi.
- **Qanunsuz təsir vasitəsilə rüşvət təklifi** – vəzifəli şəxsin qərarına təsir edə biləcəyini bildirən şəxsə rüşvət və ya digər nemət təklif etmək və ya vermək.
- **Qanunsuz təsir müqabilində rüşvət almaq** – vəzifəli şəxsin qərarına təsir göstərə biləcəyini deyən şəxsin rüşvət və ya nemət qəbul etməsi.

"Vəzifəli şəxs" dedikdə hüquqi şəxs olan turoperator və turagentin rəhbəri və işçiləri, həmçinin fiziki şəxs olan turagent başa düşülür.

Korrupsiya turizmdə inamı azaldır, xidmət keyfiyyətini zəiflədir.

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (Maddə 308-314-4):** korrupsiya cinayətdir!

## Təhlükə yaradacaq risklər

- Turizm xidmətlərində gizli ödənişlərin tələb olunması
- Rəsmi müqavilə və sənəd olmadan ödəniş edilməsinə cəhd
- "Qeyri-rəsmi xidmət" adı altında rüşvət istənilməsi
- Ədalətsiz seçim və şəffaf olmayan qərarlar
- Büdcə vəsaitlərinin turizm layihələrində mənimsənilməsi

**Risklər:** gizli ödəniş, qeyri-rəsmi tələb, şəffaf olmayan layihələr – korrupsiyanın əsas göstəriciləridir.




## Özünüzü necə qoruya bilərsiniz?

- Yalnız **rəsmi qeydiyyatda olan turizm şirkətlərinə** müraciət edin (www.data.tourism.gov.az).
- Yazılı müqavilə və qəbz tələb edin.
- Ödənişlərinizi yalnız **rəsmi hesab və ya kassa** vasitəsilə edin.
- Şübhəli tələbləri qəbul etməyin, rüşvət verməyin.
- Hər hansı qanunsuz tələblə rastlaşsanız, dərhal məlumatlandırın.

QR kodu skan edərək Turizm İnformasiya Sisteminin rəsmi səhifəsinə keçid edə bilərsiniz.